Oktyabrın 18-də Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda “Gənc istedad” jurnalının ilk nömrəsinin təqdimatı, eləcə də Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin direktorları üçün informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə ixtisasartırma kurslarının yekunlaşdırılması və müvafiq sertifikatların verilməsi mərasimi keçirilib.

Təqdimat mərasimində çıxış edən Misir Mərdanov Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər)” əhəmiyyətini vurğulayıb və jurnalın müvafiq proqrama uyğun olaraq təsis edildiyini bildirib. Son illərdə təhsilimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən, nailiyyətlərdən bəhs edən Misir Mərdanov, eyni zamanda, “Gənc istedad” jurnalının ilk nömrəsinin çapdan çıxması münasibətilə pedaqoji ictimaiyyəti və oxucuları təbrik edib.

Jurnalda “Heydər Əliyev ideyaları müasir təhsil quruculuğunun əsasıdır”, “İstedadın aşkar edilməsi və inkişafı”, “İntellektin inkişafına təsir edən amillər” və digər mövzularda maraqlı məqalələr, istedadlı uşaqlar (gənclər) barədə məlumatlar və s. verilib.

Sonra Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin direktorları üçün İKT üzrə keçirilən ixtisasartırma kursunun yekun tədbiri olub.

Təhsil naziri Misir Mərdanov tədbirdə çıxış edərək bildirib ki, treninqlərdə 300-dən çox məktəb direktoru iştirak edib. Bu gün onların 108-nə birinci dərəcəli sertifikat təqdim edildiyini qeyd edən nazir eyni zamanda 50-dən çox məktəb direktorunun treninqlərdən keçə bilmədiyini vurğulayıb.

Misir Mərdanov bildirib ki, sertifikat ala bilməyən məktəb direktorlarının özlərini bir daha sınaqdan keçirmələrinə imkan veriləcək. Məktəb direktorlarının sadəcə olaraq operator səviyyəsində kompüterdən istifadə etməyi bacarmalı olduqlarını vurğulayan nazir bildirib ki, yaxın gələcəkdə ölkəmizin bütün bölgələrində yalnız məktəb direktorları deyil, onların müavinləri, sinif rəhbərləri və bütün müəllimlərin İKT bacarıqlarına yiyələnməsinə şərait yaradılacaq.